Pedaqoji innovasiyaların növləri və onların tətbiqi xüsusiyyətləri

Müəllif **Sevda Axundova**
Xəzər Universitetinin dissertantı. Azərbaycan, Bakı.
E-mail: sevda.appp@gmail.com
https://orcid.org/0000-0001-9192-2307

Annotasiya Məqalə pedaqoji innovasiyaların növləri və onların tətbiqi zamanı qarşıya çıxan bəzi problemlərin elmi-pedaqoji və nəzəri araşdırmalarına həsr edilmişdir.Müəllif qeyd edir ki, innovasiyalar növlərinə və tətbiq xüsusiyyətlərinə görə çox müxtəlif olsa da, bu innovativ yenilikləri 3 mühüm qrupda: tələbələrə yönəlmiş tədris, təlim və tərbiyə işlərinin yeni metod və ya üsullarının tətbiqini ehtiva edən; innovativ texnoloji qurğu və avadanlıqlarla tədrisin keyfiyyətinin artırılmasına xidmət edən;qabaqcıl innovativ təcrübəni təhsil proqramları və dərsliklərdə təcəssüm etdirən yeniliklərdə birləşdirmək və təsnif etmək mümükündür. Məqalədə göstərilmişdir ki, hazırkı şəraitdə ən çox populyar olan pedaqoji innovasiylar öz meyar və çərçivələrinə görə dörd növə ayrılır: pedaqoji innovasiylarda daha məhsuldar və səmərəli pedaqoji metodların tətbiqi ilə daha yaxşı təlim nəticələrinə nail olmaq; tələbələrin öyrənmə prosesində onların idraki-koqnitiv və anlama proseslərinə təsir imkanlarını genişləndirən və stimullaşdıran üsullar, onların bacarıqlarını, qabiliyyətlərini və səriştələrini inkişaf etdirməyi ehtiva edən pedaqoji-psixoloji metodlar; müəllimlərin təlimə münasibəti, motivasiyası, özünüqiymətləndirməsi, müstəqil bacarıqları və məsuliyyətinin innovativ və qeyri-inzibati yollarla gücləndirilməsi; tədris planları və proqramlarının tərtibində tətbiq olunan qabaqcıl təcrübədən istifadə edilməsi.

Açar sözlər Pedaqoji innovasiya, tələbata əsaslanan və strateji innovasiyalar, pedaqoji innovasiyaların tətbiqi problemləri, endogen və ekzogen təhsil innovasiyaları.

DOI: 10.32906/AJES/686/2019.01.37

Məqaləyə istinad: Axundova S. (2019) *Pedaqoji innovasiyaların növləri və onların tətbiqi xüsusiyyətləri.* «Azərbaycan məktəbi». № 1 (686), səh. 57–67.

Məqalə tarixçəsi: Göndərilib — 29.03.2019; Qəbul edilib — 09.04.2019

The types of pedagogical innovations and the features of their application

Author **Sevda Akhundova**
Postdoctoral student of Khazar University. Azerbaijan, Baku.
E-mail: sevda.appp@gmail.com
https://orcid.org/0000-0001-9192-2307

Abstract The article is devoted to the scientific, pedagogical and theoretical study of the types of pedagogical innovations and some of their problems in their application. The author notes that, despite the diversity and diversity of available innovations, these innovative innovations include three important groups: training, including the application of new teaching methods; innovative technologies and equipment that improve the quality of training and can combine and classify innovative innovation practices in the field of innovation, which include educational programs and textbooks. The article shows that currently the most popular pedagogical innovators are divided into four categories according to their criteria and frameworks: achieving better learning outcomes through more productive and effective pedagogical methods in pedagogical innovations; pedagogical and psychological methods of developing students 'skills and abilities to expand and stimulate students' ability to influence their cognitive and cognitive processes in the learning process; Motivation, self-assessment of teachers, their independent skills and responsibilities in innovative and non-administrative ways; use of best practices in curriculum design and development.

Keywords Pedagogical innovations, innovations based on needs and strategies, problems of applying pedagogical innovations, endogenous and exogenous types of innovations.

DOI: 10.32906/AJES/686/2019.01.37

To cite this article: Akhundova S. (2019) *Types of pedagogical innovations and features of their application.* Azerbaijan Journal of Educational Studies. Vol. 686, Issue I, pp. 57–67.

Article history: Received — 29.03.2019; Accepted — 09.04.2019

İnnovasiyalar tətbiq sferalarına uyğun olaraq müxtəlifdir. Bunlardan biri də pedaqoji innovasiyalar hesab edilir. Pedaqoji innovasiyalarla təhsil innovasiyaları arasında xeyli fərq vardır; belə ki, təhsil innovasiyaları buraya daxil olan olan bütün infrastruktura aid olduğu halda, pedaqoji innovasiyalar daha çox onların təlim metodları və texniki vasitələrlə bilavasitə tədris prosesinə tətbiqini ehtiva edir. Yəni təhsil müəssisəsinə aid olan texnoparkda hazırlanmış hər hansı bir innovasiyanı dərhal pedaqoji innovasiya adlandırmaq düzgün olmazdı.

İnnovasiyalar öz növlərinə, parametrlərinə, tətbiq xüsusiyyətlərinə və digər aspektlərinə görə müxtəlifdir. Onların ən çox tanınmışlarından birinin – pedaqoji innovasiyaların müxtəlifnövləri vardır:

Birinci növ pedaqoji innovasiyalarda daha məhsuldar və səmərəli pedaqoji metodların tətbiqi ilə daha yaxşı təlim nəticələrinə nail olmaq nəzərdə tutulur. Əslində, bu pedaqoji innovasiya bu tipdə olan digər bütün innovasiyalar üçün, haradasa, ümumi kriteriya rolunda çıxış edir, çünki onların bünövrəsində də bilik və təlim sistemləri dayanır.

İkinci növ pedaqoji innovasiyalara tələbələrin öyrənmə prosesi zamanı koqnitiv proseslərinə təsir imkanlarını genişləndirən və stimullaşdıran üsullar, onlara bacarıq, qabiliyyət və səriştəni inkişaf etdirməyi ehtiva edən pedaqoji-psixoloji metodlar aid edilir.

Üçüncü növ pedaqoji innovasiyalarda müəllimlərin təlimə münasibəti, motivasiyası, özünüqiymətləndirməsi, müstəqil bacarıqları və məsuliyyətinin innovativ və qeyri-inzibati yollarla gücləndirilməsi nəzərdə tutulur.

Dördüncü növ pedaqoji innovasiyalar tədris planları və proqramlarının tərtibində tətbiq olunan qabaqcıl təcrübədən istifadə edilməsini ehtiva edir.

Bu pedaqoji innovasiyalar özünü üç istiqamətdə biruzə verir:

1) Tələbələrə yönəlmiş tədris, təlim və tərbiyə işlərinin yeni metod və ya üsullarını tətbiq etməklə onun təkmilləşməsinə xidmət edən innovativ yeniliklər;
2) İnnovativ texnoloji qurğu və avadanlıqlarla tədrisin keyfiyyətinin artırılmasına xidmət edən yeniliklər;
3) Qabaqcıl innovativ təcrübəni təhsil proqramları və dərsliklərdə təcəssüm etdirən yeniliklər.

Təhsildə təkamül – sistemli, ardıcıl, eləcə də geniş miqyaslı bir prosedir; buna görə o, məktəb və kollec müəllimləri, idarəedənlər və tədqiqatçılar, siyasi sahədə qərar qəbul edənlərin demək olar ki, hamısının iradəsindən asılıdır. Onun məqsədi, təlim və tərbiyə nəzəriyyəsi və təcrübəsi, həm də bu kompleksin digər aspektləri ilə bağlıdır; odur ki, bu qurumların məqsədi son nəticədə bütün tələbələrin həyatını və pedaqoji fəaliyyətə keyfiyyətli hazırlanmasını təmin etməkdir. Məhz buna görə də, innovasiyayönlü transformasiyaların məzmun və xarakterini qiymətləndirmək, onun fəaliyyət mexanizmini müəyyən etmək nəinki gözlənilən, hətta qabaqcadan görünə bilinməyən situasiyaların da nəzərə alınmasını ehtiva edir.

Təhsildə mövcud olan innovasiyaların məzmununun təyin olunması olduqca mürəkkəbdir, çünki əksər hallarda innovasiyalar «yenilik» adı altında müxtəlif

cür şişirdilir. Digər tərəfdən, təhsildə kiçik də olsa belə, innovasiyalar demək olar ki, hər yerdə və hər gün baş verir; lakin bunlar elə miqyasda baş tutur ki, heç kimin nəzər və diqqətini xüsusi olaraq cəlb etmir.

Hazırda Azərbaycanın təhsil məkanında daha çox tətbiq olunan innovasiya – intensiv metodların və İKT-nin tətbiqi vasitəsilə öyrənmənin səmərəliliyinin artırılması olduğu halda, ən az tətbiq olunan və ya olunmayan innovativ yanaşma «onlayn» təhsildir. Bütövlükdə, təhsil innovasiyalarının əsas meyarı davamlı gələcəyin və «biliklərə əsaslanan cəmiyyətin» təmin olunmasıdır. Bu müzakirədən üç əsas sual yaranır:

1. Azərbaycanda pedaqojiyönlü kolleclərdə tətbiq edilən innovasiyalar onlara xeyir gətirirmi?
2. Bu tip kolleclərdə transformativ və məktəb həyatına yüksək dərəcədə pozitiv təsir edə biləcək və ən çox arzuolunan innovasiyaların yaranmasında hansı maneələr mövcuddur?
3. Təhsildə yüksək nəticələr əldə etmək və tələbələri həyata və iş fəaliyyətinə hazırlamaq üçün bu tip məktəblərdə lazımi innovasiyaları necə həyata keçirmək və yaymaq olar?

Pedaqoji innovativ yeniliklər ya innovativ məhsul, yəni yeni səmərə gətirən bir cihaz və avadanlıq, elektron dərslik, yeni informativ vasitə və buna bənzər digər formalarda, ya da innovativ proses, yəni daha səmərəli və yeni texnoloji yol, metodika və ya təhsil xidmətləri kimi təqdim oluna bilər. Bununla belə, təşkilatlararası sistemdə, yəni bir neçə təhsil müəssisəsinin təqdim etdiyi innovativ yeniliklər və ya sifarişli innovasiyalarda istifadəçilərin və innovativ yeniliyi yaradan şəxsin funksiyaları fərqlənə bilər. Maraqlı cəhət ondan ibarətdir ki, yaradılmış innovasiya təhsilin səviyyəsinə nə qədər çox sirayət edərsə, onun dəyəri və əhəmiyyəti də bir o qədər yüksək olar. Bu baxımdan, innovasiyalar ya tələbata uyğun şəkildə, ya da strateji formada meydana gələ bilər.

Mövcud tələbatın «çağırışlarına» cavab olaraq pedaqoji innovasiyanın xüsusi çəkisi çox yüksəkdir. Bu onunla bağlıdır ki, müasir dövrdə təhsil sisteminin bütün səviyyələrində rəqabət şəraiti gücləndiyindən, yeni dərsliklərin, kurikumların və metodların yaranması qaçılmaz olmuşdur. Bununla belə, *tələbata əsaslanan* innovasiyanın bəzi məhdud cəhətləri də var. Belə ki, bu yeniliklər əksər hallarda, necə deyərlər, «bazar tələblərindən geri qalmamağa» hesablandığından, inkişaf etmiş dövlətlərin təhsil müəssisələrinin innonavasiyaları ilə müqayisədə rəqabətli üstünlüklər yaratmır. Digər bir məslə də ondan ibarətdir ki, bu cür pedaqoji innovsiyalar çox vaxt «digərlərinin imitasiyası» şəklində meydana çıxır, bəzən isə lokal xidmət xüsusiyyətləri nəzərə alınmadığından, davamlı bir sistemə çevrilə bilmir. Odur ki, *strateji innovasiyalar* pedaqoji müəssisələr üçün daha uzunömürlü olur; çünki bu tip innovsiyaların mahiyyəti «müdafiə» xarakterindən daha çox «hücumçu» səciyyəsi daşıyır. Əlavə olaraq, strateji innovasiyaların bir üstünlüyü də ondan ibarətdir ki, onlar nəinki mövcud olanları, eləcə də gələcəkdə baş qaldıra biləcək yenilikləri də nəzərə alır.

Hazırda həm elmi-pedaqoji, həm də digər təhsil praktikasında innovasiyalara olan ehtiyac və tələbat get-gedə daha da artmaqdadır. Qeyd etməliyik ki,

yenilikçilik yaradıcı düşüncə yeni fikirlər haqda düşünməklə bağlı olduğu halda (koqnitiv aspekt), innovasiyalar xaraktercə yeni olan işlərin icrası deməkdir (prakseoloji aspekt), yəni pedaqoji innovasiyalar artıq elmi və koqnitiv süzgəcdən keçmiş məhsullar hesab edildiyindən, onlar praktikada sınaqdan keçməyə daha uyğundur. Bu baxımdan, pedaqoji innovasiyaya belə tərif vermək olar: *«Pedaqoji innovasiyalar, pedaqoji nəzəriyyə, metodik yanaşma, tədris texnikası, təlim aləti, öyrənmə prosesi və ya institusional quruluş tətbiq olunduqda tədrisdə, təlim və tərbiyədə əhəmiyyətli və səmərəli dəyişiklik meydana gətirən və tələbələrin daha yaxşı öyrənməsinə səbəb olan proses hesab edilir».* Burada təhsil sahəsində yeniliklərin artırılması, təlim keyfiyyətinin yüksəldilməsi və öyrənmənin bir proses kimi keyfiyyətcə yaxşılaşdırılması nəzərdə tutulur. Digər tərəfdən, bu innovativ idarəetmə kifayət qədər pozitiv əsaslara söykəndikdə, təlim keyfiyyətinə birbaşa təsir etməklə, həm də tərbiyə işləri kompleksinin təkmilləşdirilməsinə şərait yaradır; başqa sözlə desək, bu birbaşa və bilavasitə təsir metodlarının dialektikasını yaradır.

Təhsildə səmərəliliyin iki indikatoru mövcuddur vaxt və dəyər. Əgər əvvəlkindən daha az vaxt və maddi resurslardan istifadə etməklə daha yüksək və keyfiyyətli öyrənmə əldə edə biliriksə, deməli, bu öyrənmə prosesi səmərəli hesab edilir. Məhsuldarlıq isə əldə olunmuş nəticələrin sərf olunmuş pedaqoji səylərə olan nisbəti ilə ölçülür, yəni daha az səy göstərməklə, daha böyük məhsuldarlıq və təlim keyfiyyəti əldə olunursa, əldə olunmuş nəticə məhsuldar hesab edilir. Odur ki, təhsildə innovasiyaların ölçülməsində *səmərəli öyrənmə və yüksək keyfiyyətli təhsilin mövcudluğu* başlıca indikatorlar hesab edilir. Bu həm də o deməkdir ki, təhsildə tətbiq olunan innovasiyalar həm öyrənmənin məhsuldarlığını artırmalı, həm də öyrənmə prosesinin özünü səmərəli etməlidir.

Təhsildə tətbiq olunan innovasiyaların aşağıdakı növləri vardır:

1. Təhsilin təşkili və idarə edilməsi sahəsində mövcud olan innovasiyalar;
2. Sinif – dərs sistemində tətbiq olunan yeni texnologiyalar;
3. Müəllimlərin işə qəbulu, hazırlanması və yenidən hazırlanması sahəsində mövcud olan innovasiyalar.

Bu tip innovasiyalar həyata keçirilmə miqyasına görə *endogen* və *ekzogen* tiplərə bölünür. *Endogen təhsil innovasiyaları* – təhsil sisteminin bir və ya bir neçə sahəsi və onların müxtəlif aspektləri ilə: nəzəriyyə və praktika, kurrikulum, öyrənmə və öyrətmə, təhsil siyasəti, təhsil texnologiyası, təhsil institutları və onların inzibatçılığı, institutsional mədəniyyət, müəllimlərin təhsili və digər bu kimi sahələrlə əlaqədar ola bilər. *Ekzogen təhsil innovasiyaları* maraqlı tərəfləri, öyrənənləri, valideynləri, müəllimləri, təhsil inzibatçılarını, tədqiqatçılarını, təhsil siyasəti işçilərini əhatə edir və onların bu innovasiyalara fəal dəstəyini tələb edir. Öyrənənlər dedikdə, tələbələrin öyrənmə prosesində üzləşdiyi koqnitiv və psixoloji xüsusiyyətləri, didaktik bacarıq və düşüncələri, öyrənməyə münasibəti və buna müvafiq olan səriştələri nəzərdə tutulur; əks təqdirdə, tələbələr bir substrat kimi endogen məfhumlara aid edilməlidirlər.

Əqli proseslər həm də ekzogen sıraya aid edilir. Bunlara, eyni zamanda münasibətləri, öyrənmə üsullarını, davranışları, motivasiyaları, özünüqiymət-

ləndirməni, müstəqilliyi, kommunikasiyanı, əməkdaşlıq pedaqogikasını və səmərəli öyrənmə kimi cəhətləri daxil etmək olar. Göründüyü kimi, pedaqoji innovasiyalar heç də sadə yolla yaranan və təsir mexanizminə malik olan bir fenomen hesab edilmir.

Pedaqoji innovasiyaların növlərindən danışarkən, hər şeydən əvvəl, onun pedaqoji sahənin hansı fəaliyyət növünə aid olması nəzərə alınmalıdır. Pedaqoji fəaliyyətdə mövcud olan və gözlənilənінnovasiyalar onların əsasən aşağıdakı sahələrdə tətbiqi ilə bağlıdır.

1. Təlim materiallarının, təhsil proqramlarının, dərsliklərin və digər biliklər sisteminin məzmun və forma (hər ikisi birlikdə və ya ayrıca) kəsb edən resurslarının, yenı məhsul və ya xidmətin meydana gəlməsi;
2. Xidmət sahəsində yeni, daha da təkmilləşdirilmiş və səmərəlilik baxımından daha üstün proseslərin, elektron fəaliyyət növünün təqdimatı;
3. Məktəbdaxili, məktəbdənkənar və sinifdənxaric işlərin yeni, daha səmərəli və asan yollarla, yeni texnologiyaların tətbiqi ilə qurulması metodları (məsələn, məktəb – valideyn, müəllim – valideyn məlumatlandırma siteminin tətbiqi, yeni texnologiyalarla məktəbdaxili nəzarətin bütöv və qismən bir hissəsinin həyata keçirilməsi, İKT vasitəsi ilə qarşılıqlı dərsdinləmələr və təhlillər, valideyn-məktəb arasında keçirilən virtual iclas və sessiyalar, konfrans rejimində mobil kommunikasiya vasitələrindən istifadə etməklə vacib məsələlərin həlli və s.);
4. İxtisaslara tətbiq olunan pullu xidmətləri məqsədyönlü şəkildə diferensiallaşdırmaqla və ya eyniləşdirməklə hədəflərə çatmağı daha da təkmilləşdirmək.

Bu pedaqoji innovativ metodların bir hissəsi birbaşa idarəetmə, digər hissəsi isə birbaşa təlim və tərbiyə məsələləri ilə bağlıdır. Öz istifadə məkanına görə pedaqoji innovasiyalar iki qrupa bölünür: 1) məktəbdaxili; 2) məktəbxarici.

Pedaqoji innovasiyaların növləri və xüsusiyyətləri nə qədər əhəmiyyətli olsa da, məsələnin digər tərəfi aktual olaraq qalır: «Bu yenilikləri kimlər edir?», «Müəllimlər innovasiyalar edirlərmi və onaların fərqli pedaqoji yanaşmalarını innovasiya hesab etmək olarmı?», «Dərsliklərdə və təhsil müəssisələrində dəyişikliklər yoxdursa, bu pedaqoji müəssisə qeyri – innovativmi hesab olunur?», «İrəli sürülən innovativ metod, xidmət və ya proseslə hansı miqyasda müsbət və səmərəli dəyişikliklər edilə bilər və ümumiyyətlə edilə bilərmi?», «Bu dəyişikliklərin məzmunu necədir və onları ölçmək mümkündürmü?», «Təhsildə innovasiyanın ölçülməsi və ya qiymətləndirilməsi üçün hansı metodlar vardır və gələcək perspektivlər nədən ibarətdir?». Sonuncu sual ona görə maraqlıdırki, XXI əsrin ikinci onilliyində təklif olunan innovasiyalar artıq bir neçə ildən sonra ya özü köhnəlmiş görünə bilər, ya da tətbiqi nəzərdə tutulmuş hədəflər tamamilə yenilənmiş və dəyişilmiş olar. Məsələn, heç kimə sirr deyildir ki, 30-50 il bundan əvvəlki tələbələrin intellektual bilik səviyyəsi və koqnitiv düşüncə tərzi hazırkı dövrlə müqayisədə xeyli dəyişilmişdir. Belə olan halda hansı növ innovativ yenilik məqbul və ya qəbuledilən hesab edilə bilər, hansılar perspektivsiz sayılar? Bu kimi suallar ətrafında düşünərkən, biz ümumiyyətlə təhsildə olan

innovasiyaların daha geniş və sistemli bir mənzərəsinin təhlil olunmasına ehtiyac duyuruq. Odur ki, yalnız təhsil sahəsindəki innovasiyaların deyil, ümumiyyətlə, innovativ sistemin nələrdən ibarət olması məsələsini şərh etməliyik.

İnnovasiyaların istər yenilik (yeni metod və ya üsul), istərsə də maddiləşmiş predmet və ya proses şəklində nəticəsindən asılı olmayaraq, onlar həyata keçirildiyi ərazi və onun iqtisadi-sosial xüsusisiyyətləri ilə sıx surətdə bağlıdır. Belə ki, Əraziyə bağlı İnnovasiya Sistemi (ƏİS) tədris bölgəsi və ya regional innovasiya sistemləri kimi müxtəlif anlayışları əhatə etdiyindən, bu model Ərazinin Yenilik Sistemi (ƏYS) adlandırılır. Fərqli anlayışların və fərqli intellektual köklərin mövcud olmasını nəzərə alaraq, bu yeniliklərin fərqli istiqamətlərinə diqqət yetirməyi zəruri hesab etmişlər [Frank Moulaert & Farid Sekia. 2003, p. 293-295]. Maraqlı cəhət ondan ibarətdir ki, regional əraziyə bağlı olan innovasiya sistemində bu alimlər daxili faktorları: a) *iqtisadi inkişafın səviyyəsini,* b) *sosial-mədəni parametrləri* və c) *siyasi iradəni* mühüm hesab etmiş, sonuncunun həlledici amil olduğunu bildirmişlər [Frank Moulaert & Farid Sekia. 2003, p. 296].

Müasir pedaqoji innovativ yenilikləri təhlil edərkən, onların əksəriyyətinin texnologiya vasitəsi (noutbuk, iPad, ağıllı telefon) və ya texnologiyaya əsaslanan öyrənmə sistemləri, məsələn, Təhsili İdarəetmə Sistemi (TİS) (ingiliscə – Learning Management System), təhsil proqramları və veb-əsaslı resurslarla həyata keçirildiyinin şahidi oluruq. Əslində, texnologiya hər zaman insan fəaliyyətinin hər hansı bir sahəsində hərəkətverici qüvvə, həm də innovasiya aləti kimi xidmət edir; odur ki, innovativ pedaqoji idarəetmədə texnologiyanın tətbiqi zamanı qazanılan vaxt çox zaman «iqtisadi vaxt» (İV) adlanır. Bu tip innovativ texnologiyalara video və lent yazıları, yüksək səviyyəli multimedia və proyektorlar, televiziya, linqafon sinifləri, virtual kitablar, planşet dərsliklər, tədrisə dair mühüm filmlər, kitabların məktəbdaxili radio vasitəsilə translyasiyası və s. bu kimi alətlər daxildir. Televiziyanın həyatımıza daha intensiv daxil olması, radionun funksiyasını və istifadəsini xeyli azaldır. Müəllimin müəyyən funksiyalarını öz üzərinə götürən televiziya otaqları eyni vaxtda bir neçə sinif təlimlərinə qoşularkən yalnız bir texniki heyətin – idarəedici nəzarətçinin olması kifayət edirr; heç şübhəsiz, bu, təlimin səmərəli qurulmasına və tələbələrin (daxili) maraqlarının artmasına səbəb olur. Televiziya vasitəsi ilə sinif otaqlarına translyasiya olunan təlim materiallarının seçilməsinə və lazım gəldikdə onların məzmun və formasında dəyişikliklərin edilməsinə tədris fənn müəllimləri və müvafiq qurumlar məsuliyyət daşımalıdır. Burada bir məsələni də qeyd etmək yerinə düşərdi.Bu, intitusional olaraq tələbə kontingenti daha çox olan auditoriyalarda xüsusi səmərə verir. Bu, bir tərəfdən sinfin idarə olunması və vaxta qənaət nöqteyi-nəzərindən faydalıdırsa, digər tərəfdən, təlimlərdə vizual biliklərin üstünlük təşkil etməsi ilə də səmərəlidir. Məsələn, pedaqojiyönlü kolleclərdə bu üsulun musiqi və rəsm, rəsmxətt, zoologiya, biologiya kimi fənlərin tədrisi zamanı xüsusi üstünlüyə malik olması danılmazdır. Belə ki, rəngli fonda xüsusi cizgi və ştrixlərin verilməsi, rəsmin konturlarının cızılması skafholdinq (yardımla və addım-addım öyrənmə) vasitəsilə auditoriyaya çatdırılmalı olan kontent materiala marağı daha da artırır. Aparılmış müşahidələrimiz göstərir ki, televiziya

tədris üsulu məktəblərimizdə ya heç isifadə olunmur, ya da yalnız günorta vaxtlarında daha çox istifadə edilir. Yaxşı olardı ki, bu tədris üsulundan səhər saatlarında daha çox istifadə olunsun.

Texnologiya aktiv bir element kimi günümüzün yeniliklərinin əsas mənbəyi hesab edilsə də, təkcə texnologiyaya güvənmək doğru olmazdı. Burada aşağıdakı faktorların nəzərə alınması son dərəcə vacib hesab edilir: 1) pedaqoji mühitdə müəllimlərin innovativ tədris zamanı vaxtdan praktiki məqsədlər üçün istifadə etməsinin zəruriliyi; 2) sinfin düzgün idarə olunmasının əsas həlqələrdən biri hesab edilməsi; 3) müvəffəq olmağın kritik zəruriliyi, yəni müvəffəqiyyəti əldə etmə müəllimləri bu prosesdə təcrübə keçirməyə və normalardan kənara çıxmağa sövq etməməsidir.

Beləliklə, prinsipal cəhətlər – innovativ tətbiqetmənin hər birinin fərdi xüsusiyyətlərə malik olması (məsələn, kompyuter və televiziya tədrisi müxtəlifdir və onların hər birinin yeri ayrıcadır) yadda saxlanılmalı, bu innovativ tədrisdən hansı vaxt və nə qədər istifadə etməyin lazım gəlməsi kimi məsələlər nəzərə alınmalıdır. İnnovativ texnologiyalar çox sürətlə inkişaf etdiyindən rəqəmsal və virtual öyrənmələrin tətbiqinin avtomatik olaraq təlim müvəffəqiyyətinə səbəb olacağı yanlış fikirdir. Konkret olaraq müəyyən şəraitdə ənənəvi öyrənmə metodlarının texnologiyaların tətbiqini ehtiva edən tədris proseslərindən daha üstün olmasına dair xeyli misallar gətirmək olar. Odur ki, bu metodların mexaniki seçilməsi heç də həmişə təlim müvəffəqiyyətinin rəhni ola bilməz.

Pedaqoji yönlü kolleclərin innovasiyasız və zəif idarə edilməsi aşağıdakı səbəblərlə bağlıdır:

- peşə standartlarının kifayət qədər köhnə olması;
- pedaqoqların tədris seçimində predmetyönlülüyün tələbəyönlülükdən üstün tutulması;
- kollecin kurikulum oriyentasiyasının biliklərin tətbiqinə deyil, yalnız bilik verməyə köklənməsi;
- tələblərin bacarıqlarının öyrənilməsi metodlarının ya tətbiq edilməməsi, ya da zəif tətbiqi.

Təlim nəticələrinin daim nəzarətdə saxlanılması innovativ idarəetmənin ən mühüm üsullarından biridir. Bunun üçün dünya praktikasında istifadə olunan ən mühüm üsul -hər bir fənn və fənn qrupları üçün yol xəritəsivacib hesab edilir. Apardığımız müşahidələr göstərir ki, təlim və ya öyrənmənin yol xəritəsinin ən populyar üsulu tələbələrin və məzunların zəif cəhətlərinin müəyyən edilməsi onların tədqiqata meiylli olması və bacarıqlarının nə dərəcədə inkişaf etdirilməsi ilə sıx bağlıdır.Bunları ayrılıqda traları dərəcədə insaq, görqda tralatı dərəcədə zəif cəhətləri, əsasən, aşağıdakı faktorlaral sıx zəif cəhət:

- öyrənməyə şəxsi cəhdin kifayət qədər olmaması;
- «risk» etmək qorxusu;
- prioritetləri seçə bilməmək;
- perspektiv düşüncədən uzaq olmaq və ya «daha böyük mənzərəni» görə bilməmək;
- vaxtı dəyərləndirməyi bacarmamaq;

- problem və ehtiyaclara «açıq olmamaq»;
- «insani bacarıqların» zəif olması;
- təlim trayektoriyasını (həm şəxsi, həm də ümumi) düzgün idarə edə bilməmək.

Tələbələrin tədqiqat meyilli olmasının bir sıra indikatorları mövcuddur. Bunlardan ən mühüm hesab edilənlər aşağıdakılardır:

- birtərəflilikdən uzaq olmaqla, müxtəlif sahələrdə olan fənləri öyrənməyə meyilli olmaq;
- tənqidi və yaradıcı düşüncə bacarıqlarına malik olmq;
- müxtəlif predmetlər üzrə tədqiqat metodları haqda anlayışlı olmaq;
- ideyaları təhliletməyi və düzgün qiymətləndirməyi bacarmaq;
- öyrənmə prosesi üzərində düşünməyi bacarmaq.

İnkişaf etmiş bacarıqların spektrinin mürəkkəb və çoxşaxəli olması ilə bağlı ən mühüm parametrlərə isə bunlar aid edilir:

- təlim keyfiyyət göstəricilərində innovativ və yaradıcı həllərin tətbiqinın ənənəvi həll metodlarından üstünlük təşkil etməsi;
- pedaqoji etik çərçivələrin və prinsiplərin gözlənilməsi;
- yüksək ünsiyyət bacarıqlarının nümayiş etdirilməsi keyfiyyəti.

Təəssüf ki, hazırda innovativ və ənənəvi metodların seçilməsi meyarlarına həsr edilmiş təlimlər çox azlıq təşkil edir. Digər tərəfdən, heç kimə sirr deyil ki, pedaqoji ictimaiyyət arasında texnologiya və innovativ metodlarla tədris süni surətdə daha çox şişirdilir. Çatışmayan digər bir cəhət ondan ibarətdir ki, «innovativ hesab edilən həmişə əla hesab edilir» sindromu da mövcuddur [Vergnaud G. 2009; Frank Moulaert & Farid Sekia. 2003]. Lakin tətbiqinə diqqətlə yanaşıldıqda, mühüm cəhətlər sərf-nəzər edildikdə (fənn, fərdi xüsusiyyətlər, ərazi, profil və s.), burada təlim keyfiyyəti ilə bağlı xeyli sayda ümdə cəhətlərin gizləndiyinin şahidi oluruq. Məsələn, Viera Boumováya görə (Çex Respublikası, Masarik Universiteti), xarici dilin ənənəvi öyrənilməsi «müəllim dominantlığına əsaslandığından» kommunikasiyaya xidmət etmir; odur ki, burada müasir metodlardan istifadə olunması təbii sayılır [Bc. Viera Boumová. 2008. səh. 11]. Yəni məqsədlərə çatmaq üçün bu halda «öyrənmənin baş tutmasına yardımçı olacaq» [Bc. Viera Boumová. 2008. səh. 20] daha müasir innovasiyayönlü təlimin aparılması zəruri hesab edilir. Marina Voronovaya (Rusiya) görə isə «xarici dilin sosial-mədəni aspektlərini öyrənmədən dil vərdişlərinə yiyələnmək mümükün olmur.» [Марина Владимировна Воронова. 2018, стр. 209].

Digər bir halda, təhsil texnologiyaları üzrə ekspert alimlər Larry Cuban, Heather Kirkpatrick və Craig Peck (ABŞ, Stanford Universiteti) həmmüəllif olduqları tədqiqatda göstərirlər ki, «kompüterdən yalnız pedaqoqun təlim və tədris məqsədlərindən asılı olaraq» istifadə olunması lazımdır, çünki müəyyən «esselərin yazılması zamanı əlyazması kompüterdən daha üstün tutulur» [Larry Cuban, Heather Kirkpatrick and Craig Peck. 2001, səh. 815].

İnnovativ yeniliklərin tətbiqi həm də yeni öyrənmə üslublarının, metod və prinsiplərinin meydana gəlməsini ehtiva edir, çünki fərdlərin psixoloji xüsusiyyətləri müxtəlif olduğundan yaddasaxlamavə audio-vizual seçimlərdə onların səmərəlilik

dərəcəsi də fərqlənəcəkdir. Lakin bununla bərabər, bu vizual vasitələr sinif otaqlarına reallıq və daha səmərəli öyrənmə vərdişləri də gətirir [Vergnaud G. 2009; Frank Moulaert & Farid Sekia. 2003]. Belə ki,müasir kommunikasiya vasitələri ilə (iPhone, iPad, Skype, FaceTime və sair) dünyanın hər hansı bir yerində, real vaxtda görüntülü ünsiyyət qurmaq mümkündür. Yəni bu gün onlayn öyrənmə, mobil öyrənmə, sosial şəbəkədə öyrənmə, virtual oyunlar vasitəsilə öyrənmə, virtual reallıq, virtual «distant laboratoriyalar»ın istifadəsi, 3D və 4D çap və vizual ünsürlərin tətbiqi yeni pedaqoji innovativ üsullar hesab edilsə də, onların fərdi qabiliyyətləri və imkanlarıinkişaf etdirmək xüsusiyyəti xeyli mübahisəli görünür. Bu, əsla o anlama gəlmir ki, innovativ pedaqoji tətbiqlər təhlükəli hesab olunmalıdır. Lakin heç kim də şübhə etmir ki, öyrənmənin daxili koqnitiv-psixoloji elementlərinin səthdə asanlıqla görünən və dərk oluna bilən funksiyalarla əvəz olunması bir sıra vacib mürəkkəb əqli-psixoloji fərdiprosesləri kölgədə qoyur və onları passivləşdirir [Vergnaud G. 2009; Frank Moulaert & Farid Sekia. 2003]. Əslində, daha az zəhmət çəkməklə böyük pedaqoji səmərə əldə etmək – elə innovativ tətbiqin əsas meyarlarından sayılır. Fikrimizcə, bu, mürəkkəb inteqrativ birləşmənin – texnoloji və insan faktorlarının eyniləşdirməməsi demək deyildir, çünki sadə dillə desək, istənilən halda «pedaqoji müdaxilə» istisna edilmir. O zaman belə bir sual ortaya çıxa bilər: İqtisadi vaxtın potensialından təhsil sahəsində fərqlilik yaratmaq və öyrənmə nəticəsini artırmaq üçün istifadə edirikmi və bu hansı prinsiplər əsasında həyata keçirilir?

Texnologiya əməyin məhsuldarlığını artırmaq üçün, əsasən, istehsal, biznes və araşdırmalarda istifadə olunur. Texnologiyanın təhsilə inteqrasiya olunması çoxcəhətlidir, odur ki, onun səmərəliliyinin ölçülməsi bu pedaqoji innovasiya növünün yaratdığı dəyişikliklərin qiymətləndirilməsi, xüsusilə onun təlim keyfiyyətinin yüksəldilməsində proporsional rolunu öyrənmək kifayət qədər məntiqlidir. Yəni hansı texnoloji vasitənin tələbələrin riyaziyyat, ədəbiyyat, dillər və digər sahələr üzrə biliklər əldə etməsinə, onların daha yaxşı öyrənməsinə kömək etdiyini və öyrənmə nəticələrini yaxşılaşdırması, bu vasitələrdən istifadənin səmərəliliyi kimi sualların cavabları – innovasiya növlərinin gələcək dövrünü və davamlılığını müəyyən edən cəhətlərdəndir.

Problemin aktuallığı. Təhsildə pedaqoji innovasiyalar, onların tipləri, tətbiq sahələri və tətbiq metodları, funksional yenilikləri və qarşıya çıxan problemlərin həll edilməsi, onların təhsilin təşkili və keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsinə necə təsir etməsinin araşdırılmasına ciddi ehtiyac vardır.

Problemin yeniliyi. Məqalədə pedaqoji innovasiyaların növləri və onların tətbiqi ilə bağlı təlim keyfiyyətinin, öyrənmənin və eləcə də öyrətmənin səmərəliliyinin artırılması, innovativ ideyaların tətbiqi və onun idarəçilik mexanizminə təsiri yolları araşdırılır.

Problemin praktik əhəmiyyəti. Təhlil olunan pedaqoji innovasiyaların növləri, tətbiqi mexanizmlərinin təhlili və dərindən araşdırılması pedaqoji şəraitin qiymətləndirilməsi kimi təlim proqnozlarında geniş istifadə oluna bilər və təhsil siyasəti ilə məşğul olanlar, idarəedici və idarəolunan heyətin fəaliyyətinə istiqamət olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Agaeva V. (2006) Innovation Management, Azerbaijan Journal of Educational Studies, No. 3. p.12-17.
2. Boumová V. (2008) Traditional vs. Modern Teaching Methods: Advantages and Disadvantages of Each Master's Diploma Thesis, Masaryk University Faculty of Arts Department of English and American Studies. p. 91.
3. Gascón J. (2003), From the Cognitive Program to the Epistemological Program in didactics of mathematics. Two incommensurable scientific research programs? For the Learning of Mathematics, Vol. 23 (2) pp. 44-55.
4. Gueudet G., Bueno-Ravel L., S. Modeste, Trouche L. (2017), Curriculum in France: A national frame in transition D. Thompson, M.A. Huntley, C. Suurtamm (Eds.), International perspectives on mathematics curriculum, International Age Publishing, Charlotte, NC. pp. 41-70.
5. Larry Cuban, Heather Kirkpatrick and Craig Peck: (2001) American Educational Research Journal, Vol. 38, No. 4, p.p. 813-834.
6. Moulaert F. &Farid Sekia: (2003) Territorial Innovation Models: A Critical Survey Debates and Surveys, Regional Studies, Volume 37, Issue 3. p. 289-302.
7. Radford L. (2008), Connecting theories in mathematics education: Challenges and possibilities ZDM – Mathematics Education, Vol.40, pp. 317-327.
8. Vergnaud G. (2009), The theory of conceptual fields Human Development, Vol.52, pp. 83-94.
9. Ахмедов И. (2009) Инновационная образовательная политика, Журнал «Азербайджанская школа», № 5. с.61-70.
10. Марина Владимировна Воронова: (2018) «Иноязычная коммуникативная компетенция как часть профессионального обучения студентов колледжа». Инновационные научные исследования: теория, методология, практика. Сборник статей XIII Международной научно-практической конференции. Пенза, часть 2, МЦНС «Наука и Просвещение». с. 208-210.

Internet resursları

11. https://is.muni.cz/th/f62v8/MgrDiplomkaBoumova.pdf
12. http://marianrosenberg.wiki.westga.edu/file/view/CubanLHighAccessLowUSe.pdf
13. https://naukaip.ru/wp-content/uploads/2018/03/МК-304-Сборник-Часть-2.pdf